Tərlan əbilov



## BAĞIŞLA, QIZIM...

**Başımı başlara qoşdum,
haqsızlara coşdum,
nə gülə tikan dediyimdə gülə tikan,
nə tikana gül dediyimdə
tikana gül deyən dostum qaldı...
Yox, dünya dağılmadı,
evsiz-eşiksiz, sevgisiz qaldım...
Bağışla, qızım,
mən ayağını kiminsə qarşısından geri
çəkən kişi olmadım...**

***

**Qar yağır,
müharibədən sonra ağ olur
torpağın üzü...**

***

**Kölgəndə qaranlıqlar böyüyür,
böyüyür qatı-qara zülmətlər...
Böyüyüb neçə-neçə həsrət yekə kişi olur,
neçə-neçə sevinc yekə qız...
Həmişəki kimi
hasarın o biri tərəfində qalır yenə vüsal...
Heç kim öz ömrünün içinə girə bilmir,
həyatının beş addımlığından köçüb gedir hamı,
səni axtarır öz böyüyən kölgəsində,
öz böyüyən qaranlığında
dünənin adamı,
bu günün adamı...
Kölgəsinin, qaranlığının içindən keçib
qayıtmaq istəyir hər kəs sənə - özünə,
ömür sovxa da
işıq kimi düşür uzaqdan
adamın üzünə, gözünə...**

## ALLAH

**Bəlkə hansısa başqa bir dünyada
əlində müqəddəs kitab kimi varaqlanır üzüm.
Amma sənin olmadığın bu dünyada
yağış altında torpağa batmış daş kimi
yuyulur izim
min illərdi...**

## ÜZÜNƏ

**İlahi, bu qadın gültək,
toxunub tülün üzünə...
Pəncərəsindən ay damır,
min ildi gölün üzünə...**

**Başlayandan bu qaç, bu qov,
Düşmüşəm içimdə bir lov.
İnsafmı belə od, alov
tərpənə külün üzünə?!**

**Səbri araya çən düşüb,
Ləçəkləri erkən düşüb.
Hörük saçları dən düşüb
bir cüt sünbülün üzünə.**

**Çəkil, ah kimi çəkilim,
Çəkil, şeh kimi çəkilim,
Çəkil, meh kimi çəkilim
salavat gülün üzünə...**

***

**Ən pis müharibə
adamın
öz-özünə elan etmədən açdığı müharibədir,
o da sevgi kimidir,
başlamaq olur,
bitirmək olmur hələm-hələm...**

***

**Dünya uzun sürən mülk imtinasıdır,
Tanrım verən bu can ömrün binasıdır.**

**Sahil olan bilir ruhun dəniz yerin,
Köksümdə hər nəfəs söz fırtınasıdır.**

**Yarın mənəmsə, sən yandır çıraq məni,
Mən yanmasam sənə, bəs kim yanasıdır?**

**Sındır olan nə var tilsim, - çiliklənə,
Sındırmasan əgər, könlüm sınasıdır.**

**Çək göz uzağdən, hər an dikil mənə,
Baxmaq uzaqlara qəlbin zinasıdır.**

**Hər narı qoynunun bir oddu ayrıca,
Çün nar nar ilə yarın cinasıdır.**

**Tərlan verib talaq dünyayə, ey sənəm,
Hər yazdığı sənə eşq e'tinasıdır.**